AZƏRBAYCAN RESPUBLİKASININ
SƏHİYYƏ NAZİRLİYİ

AZ1022 Bakı, Nəsimi rayonu, M.Mirqasımov küç., 1A www.health.gov.az
Tel.: (+994 12) 598 50 94 Faks: (+994 12) 493 06 95 Elektron ünvan: office@health.gov.az

27.12.2011 № 131

№-zə ____________

# ƏMR

**"Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Rumıniyanın Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlığa dair imzalanmış Sazişin icrası haqqında"**

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Rumıniyanın Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmləri sahəsində 18 aprel 2011-ci il tarixli Saziş çərçivəsində Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin öhdəliklərinin yerinə yetirilməsi məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Rumıniyanın Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmləri sahəsində sazişin müddəalarının icrası ilə bağlı işlərin təşkili və əlaqələndirilməsi Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsinə həvalə edilsin.

2. Bu əmrin 1-ci bəndində göstərilən sazişin müddəalarının icrası ilə bağlı texniki məsələlərin həlli üzrə Beynəlxalq əlaqələr şöbəsinin nəzdində işçi qrup yaradılsın (əlavə olunur).

3. Beynəlxalq əlaqələr şöbəsinin müdiri Samir Abdullayevə tapşırılsın ki, bu əmrin 1-ci bəndində göstərilən sazişin müddəalarının yerinə yetirilməsi, hədəflər və tədbirlər planının tərtibatı, prioritet sahələr üzrə əlaqələrin qurulması, habelə müqabil tərəf haqqında məlumat bazasının yaradılması üçün aidiyyəti mütəxəssislər cəlb edilsin.

4. Əmrin icrasına nəzarət Beynəlxalq əlaqələr şöbəsinin müdiri Samir Abdullayevə həvalə edilsin.

**Nazir müavini** **Abbas Vəlibəyov**